**UOT 327**

# PREZİDENT İLHAM ƏLİYEVİN SÜLH STRATEGİYASININ KONSEPTUAL ƏSASLARI

**Həvva ORUCOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 21 avqust 2025; çapa qəbul edilmişdir: 19 sentyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 21th of August, 2025; accepted: 19th of September, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *sülh strategiyası, Azərbaycan, Cənubi Qafqaz, beynəlxalq hüquq*

## Giriş

artmasında əsas amillərdən biri olmuşdur. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, mədəniyyətlərarası dialoq və humanitar Müasir beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyin təmin olunması dövlətlərin strateji prioritetləri sırasında mühüm yer tutur. XXI əsrin ilk rübü qlobal miqyasda geosiyasi ziddiyyətlərin artması, regional münaqişələrin çoxalması və yeni təhlükəsizlik çağırışlarının meydana çıxması ilə xarakterizə olunur. Belə bir mürəkkəb və çoxqütblü dünyada dövlətlərin diplomatik fəallığı və sülhə yönəlik siyasətləri onların beynəlxalq münasibətlər sistemində mövqeyini müəyyən edən əsas amillərdən biri olmuşdur. Bu mənada sülh yalnız hərbi münaqişələrin qarşısının alınması deyil, eyni zamanda siyasi sabitliyin, sosial rifahın və davamlı inkişafın təməlidir.

Azərbaycanın bu istiqamətdəki mövqeyi isə, xüsusilə 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə qədəm qoymuşdur. Məhz bu tarixdən başlayaraq Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biri olan sülh və sabitliyin təmin olunması məsələsi strateji konsepsiya kimi formalaşmışdır. Prezident İlham Əliyev ölkənin təhlükəsizliyini yalnız hərbi amillərlə deyil, diplomatik, iqtisadi və humanitar mexanizmlərlə möhkəmləndirmək yolunu seçmişdir. Onun rəhbərliyi ilə həyata keçirilən xarici siyasət həm regionda, həm də beynəlxalq miqyasda Azərbaycanın konstruktiv aktor kimi tanınmasına səbəb olmuşdur.

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin təməlində isə, şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu strategiyası dayanırdı. Ümummilli Lider Heydər Əliyev dövründə yürüdülən xarici siyasətin əsas fəlsəfəsi dövlətin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinin təmin olunmasına yönəlmişdi. Neorealist yanaşmaya uyğun olaraq, dövlət beynəlxalq sistemdə anarxiyanın hökm sürdüyü və hər bir aktorun öz maraqlarını təmin etmək üçün müstəqil qərarlar qəbul etdiyi bir mühitdə öz mövqeyini gücləndirməyə çalışır. Azərbaycan bu yanaşma çərçivəsində balanslaşdırılmış xarici siyasət kursu seçərək həm Qərb, həm də Rusiya və İran kimi regional güclərlə paralel əməkdaşlıq münasibətləri qurmağa çalışdı. Bu, bir tərəfdən beynəlxalq təcriddən yayınmaq, digər tərəfdən isə müxtəlif güc mərkəzləri arasında manevr etmək imkanı verirdi. Bu yanaşmanın bariz nümunəsi kimi 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"

---

* *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* havva.orucova@bsu.edu.az
*ORCİD*: https://orcid.org/0009-0000-8384-7108
https://doi.org/10.30546/25194011.2025.14.5.3056

göstərilə bilər. Ümummilli Lider Heydər Əliyev bu hadisəni xalqın həyatında önəmli bir tarixi gün kimi qeyd etmişdi (2, s. 64). Məhz Ümummilli Lider Heydər Əliyev dövründə hələ sovet dövlətinin mövcud olduğu vaxt görülən işlər "Əsrin müqaviləsi"nin imzalanması üçün əsas kimi çıxış etdilər (7, s. 4). Bundan əlavə, 1994-cü ildən etibarən NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla Azərbaycan Qərb institutları ilə təhlükəsizlik və hərbi sahədə əməkdaşlığın əsasını qoydu (5, s. 33). Təbii ki, bütün bu başlanğıclar uğurlu bir şəkildə Prezident İlham Əliyev tərəfindən davam etdirildi.

Azərbaycanın xarici siyasətində sülh, əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri fundamental yanaşma kimi müəyyən olunmuşdur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmama prinsiplərinə əsaslanır. Azərbaycan bu çərçivədə regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış etmiş, münaqişələrin danışıqlar yolu ilə həll olunmasının tərəfdarı kimi çıxış etmiş və çoxtərəfli diplomatik platformalarda fəal iştirak etmişdir.

Bu siyasət Azərbaycanın beynəlxalq nüfuzunun əməkdaşlıq sahəsində atılan addımlar Azərbaycanın regionda və beynəlxalq təşkilatlarda etibarlı tərəfdaş kimi tanınmasını təmin etmişdir. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm Avropa İttifaqı ilə strateji tərəfdaşlıq əlaqələri qurmuş, həm də Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, BMT və Qoşulmama Hərəkatı kimi platformalarda fəallığını artırmışdır.

Bundan əlavə, İlham Əliyevin sülhə əsaslanan yanaşması yalnız dövlətlərarası münasibətlərlə məhdudlaşmır. O, eyni zamanda region daxilində müxtəlif etnik və dini qruplar arasında harmoniyanın və qarşılıqlı anlaşmanın qorunmasını da sülh konsepsiyasının vacib tərkib hissəsi hesab edir. Multikulturalizm siyasətinin institusional əsaslarla gücləndirilməsi, tolerantlıq mühitinin təşviqi və etnoslararası münasibətlərdə balansın saxlanılması Azərbaycanın daxili sabitliyini təmin etməklə yanaşı, ölkənin beynəlxalq nüfuzunu artıran ideoloji dayaqlardan biri kimi çıxış edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılan sülhə əsaslanan xarici siyasət modeli həm regional, həm də beynəlxalq kontekstdə Azərbaycanın strateji maraqlarını təmin etməklə yanaşı, ölkənin sülh və təhlükəsizlik üzrə qlobal dialoqda fəal və məsuliyyətli tərəfdaş kimi çıxış etməsinə şərait yaratmışdır. Bu strategiya özündə milli maraqlara əsaslanan, beynəlxalq hüquqa söykənən və uzunmüddətli sabitliyə yönəlmiş kompleks və çoxşaxəli yanaşmanı ehtiva edir.

## 1. Azərbaycanın sülhə siyasi münasibətinin nəzəri əsasları

Azərbaycan Respublikasının Konstitusiyası və dövlət siyasətinin əsas istiqamətləri ölkənin beynəlxalq hüquqa, xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və digər beynəlxalq hüquqi sənədlərə uyğun şəkildə fəaliyyət göstərməsini təmin edir. Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsində müharibənin və zorakılığın yolverilməzliyi prinsipi təsbit edilmiş, sülhün qorunması və beynəlxalq təhlükəsizliyin təmin edilməsi dövlətin fundamental məqsədlərindən biri kimi qeyd olunmuşdur. Bu normativ çərçivə Azərbaycanın beynəlxalq münasibətlərdə hüquqa əsaslanan davranış modelini qəbul etdiyini və bu istiqamətdə ardıcıl mövqe sərgilədiyini göstərir.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətinin prioritet vəzifələrindən biri öz suverenliyini, ərazi bütövlüyünü beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində bərpa etmək və qorumaq olmuşdur. Bu məqsədlə Azərbaycan daim beynəlxalq hüququn müvafiq sənədlərinə, o cümlədən BMT Nizamnaməsinin 2-ci maddəsinə, Helsinki Yekun Aktına və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad etmişdir. Bu sənədlər Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz azad edilməsini və regionda davamlı sülhün təmin edilməsini tələb edirdi. BMT tribunasında Azərbaycanın mövqeyinin səsləndirilməsi, beynəlxalq hüquqa əsaslanan çağırışlar və işğal olunmuş ərazilərlə bağlı qəbul edilən qətnamələr, bu onillikdə ölkə-

mizin beynəlxalq nüfuzunun artmasına təkan vermişdir (4). Bu tədbirlər sırasında 2012-ci il may ayında Prezident İlham Əliyev və Pan Gi Mun arasında baş tutan bu görüş və onun nəticəsi olan yüksək səviyyəli iclas Azərbaycanın BMT sistemindəki aktiv rolu və strateji diplomatik bacarığının təzahürüdür. Bu hadisə həm də Azərbaycanın qlobal təhlükəsizlik gündəmində təşəbbüskar və məsuliyyətli dövlət kimi çıxış etdiyini bir daha sübut edir (9).

Azərbaycan beynəlxalq münasibətlər sistemində gücdən deyil, hüquqdan istifadə edilməsinin tərəfdarıdır. Bu yanaşma Prezident İlham Əliyevin siyasi ritorikasında, beynəlxalq tribunalarda və regional platformalarda etdiyi çıxışlarda ardıcıl şəkildə öz əksini tapmışdır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti sülhü sadəcə müvəqqəti atəşkəs və ya ziddiyyətlərin ertələnməsi kimi deyil, beynəlxalq hüquqa əsaslanan ədalətli nizamlanma prosesi kimi nəzərdən keçirir. O, dəfələrlə bəyan etmişdir ki, əgər sülh beynəlxalq hüququn fundamental prinsiplərinə, xüsusilə suverenlik və ərazi bütövlüyünə əsaslanmırsa, o zaman bu sülh formal və qısaömürlü olacaqdır.

Prezident İlham Əliyevin sülhə yanaşması onun siyasi fəlsəfəsinin mərkəzində duran əsas prinsiplərdən biridir. Onun siyasi məntiqinə görə, sülhün davamlı və effektiv olması üçün o, ilk növbədə tarixi ədalətin bərpasına, daha sonra isə hüquqi əsasların möhkəmləndirilməsinə söykənməlidir. Bu yanaşma realizm və konstruktiv idealizmin uğurlu sintezi kimi qiymətləndirilə bilər. Belə ki, İlham Əliyev bir tərəfdən regional güc balansını və milli maraqları əsas götürür, digər tərəfdən isə beynəlxalq hüquq normaları çərçivəsində legitim həll yollarını təşviq edir. Bu, Azərbaycanın post-münaqişə dövründə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atdığı addımlarda da özünü göstərmişdir.

Azərbaycanın sülh konsepsiyası siyasi nəzəriyyədə "pozitiv sülh" anlayışına uyğun gəlir. Pozitiv sülh sadəcə silahlı münaqişənin olmaması deyil, eyni zamanda struktur zorakılığın və institusional ədalətsizliyin də aradan qaldırılmasını nəzərdə tutur. Azərbaycan bu baxımdan həm regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir, həm də beynəlxalq təşkilatlarda hüquqi ədalətin bərpası üçün aktiv diplomatiya yürüdür. Buraya Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı müzakirələr və Ermənistanla birbaşa danışıqlar təşəbbüsləri daxildir.

Eyni zamanda, Prezident İlham Əliyev regional və beynəlxalq miqyasda ədalətsiz və qərəzli vasitəçilik modellərinə qarşı çıxaraq, sülhün milli maraqlara və bərabərlik prinsiplərinə əsaslanan formatda qurulmasının vacibliyini önə çəkmişdir. Onun fikrincə, vasitəçilərin qərəzli mövqeyi və ya ikili standartlar sülh prosesinə xidmət etməyəcək, əksinə onu dərinləşdirəcəkdir. Bu baxımdan Azərbaycanın müstəqil siyasəti və özünəinamlı diplomatik mövqeyi, postkolonial dövlətlərin nümunə götürə biləcəyi praqmatik model kimi qəbul oluna bilər.

Azərbaycanın sülhə münasibəti həm hüquqi, həm siyasi, həm də nəzəri baxımdan kifayət qədər əsaslı və sistemlidir. Bu münasibət Prezident İlham Əliyevin rasional, hüquqa əsaslanan və strateji düşüncə ilə idarə etdiyi xarici siyasətin təzahürüdür. Bu siyasət beynəlxalq aləmdə Azərbaycanın etibarlı, sabitlik yönümlü və hüquqa sadiq tərəfdaş kimi tanınmasına zəmin yaratmışdır. Azərbaycanın sülh fəlsəfəsi regional münaqişələrin beynəlxalq hüquq çərçivəsində ədalətli həllinə yönəlmiş kompleks bir konsepsiya kimi qiymətləndirilməlidir.

## 2. Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın strateji rolu

Cənubi Qafqaz regionu – Azərbaycan, Ermənistan və Gürcüstandan ibarət olan geosiyasi məkan – uzun müddət ərzində regional münaqişələr, etnik qarşıdurmalar və xarici güclərin maraq toqquşmaları səbəbilə sabitliyin bərqərar olmadığı bir bölgə kimi

tanınmışdır. XIX əsrdən etibarən Rusiya imperiyasının genişlənmə siyasəti nəticəsində bu bölgənin siyasi arxitekturası ciddi şəkildə dəyişmiş və yerli xalqların tarixi əlaqələri süni sərhədlərlə parçalanmışdır. Sovet dövründə isə milli məsələlərin süni şəkildə "dondurulması" və mərkəzdən idarə olunması nəticəsində etnik qarşıdurmaların kökü kəsilməmiş, əksinə, bu problemlər Sovet İttifaqının dağılması ilə açıq fazaya keçmişdir.

1990-cı illərdən etibarən regionda bir neçə əsas münaqişə ocağı meydana çıxmışdır: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrindəki separatizm və Rusiya ilə qarşıdurma, habelə Ermənistan daxilindəki daxili siyasi sabitliyin zaman-zaman pozulması. Bu münaqişələrin əksəriyyəti təkcə yerli etnik və siyasi ziddiyyətlərlə deyil, həm də xarici güclərin müdaxiləsi və maraqlarının toqquşması ilə qızışdırılmışdır. Xüsusilə Rusiya Federasiyası Cənubi Qafqazda "nəzarətli xaos" strategiyasını tətbiq edərək bölgədəki münaqişələrin tam həllini ləngitmiş və öz hərbi-siyasi təsir imkanlarını qoruyub saxlamağa çalışmışdır.

Rusiya, özünün "yaxın xaric" adlandırdığı postsovet məkanında təsirini saxlamaq üçün Ermənistanla strateji hərbi ittifaq qurmuş, oradakı 102-ci baza vasitəsilə regional güc balansını öz xeyrinə dəyişməyə çalışmışdır. Digər tərəfdən, Ermənistan-Rusiya münasibətləri əsasən Moskvanın diktə etdiyi təhlükəsizlik konsepsiyasına əsaslanmış, bu isə Ermənistanın öz siyasətində müstəqilliyini itirməsinə və münaqişənin beynəlxalq hüquqa uyğun həllinə qarşı çıxmasına səbəb olmuşdur. Bu kontekstdə Qərbin ikili standartları da xüsusi qeyd olunmalıdır. ABŞ və Avropa İttifaqı bəzi hallarda Ermənistanın hüquqa zidd mövqeyini sükutla qarşılamış, bu isə Azərbaycan ictimaiyyətində beynəlxalq ədalətə inamın zəifləməsinə gətirib çıxarmışdır.

Azərbaycan isə bütün bu mürəkkəb geosiyasi reallıqlar fonunda balanslaşdırılmış və çoxşaxəli xarici siyasət həyata keçirmişdir. Rusiya ilə münasibətlərdə praqmatik əməkdaşlıq modeli üstünlük təşkil etmiş, enerji təhlükəsizliyi və nəqliyyat layihələrində qarşılıqlı fayda prinsipi qorunmuşdur. İranla münasibətlər tarixi, dini və mədəni bağlarla yanaşı, diplomatik etiket çərçivəsində möhkəmləndirilmiş, xüsusilə iqtisadi sahədə qarşılıqlı investisiya və ticarət genişlənmişdir. Lakin Azərbaycanın regional siyasətində ən sabit və dərin tərəfdaşlıq münasibətləri Türkiyə ilə qurulmuşdur.

2003-cü ildən etibarən İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu əməkdaşlıq təkcə hərbi sahədə deyil, enerji, nəqliyyat, mədəniyyət və beynəlxalq platformalarda birgə fəaliyyət formasında özünü göstərmişdir. 2003-cü il oktyabrın 31-də keçirilən rəsmi qəbulda Prezident İlham Əliyev "Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır" fikrini səsləndirərək, qarşıdakı dövrdə Türkiyə ilə münasibətlərin əsas strateji xəttini müəyyən etmişdi (1) TANAP və TAP layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu və Şuşa Bəyannaməsi bu münasibətlərin məntiqi nəticəsidir. Xüsusilə 2020-ci il 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin siyasi və mənəvi dəstəyi Azərbaycanın beynəlxalq təcriddən çıxmasına və diplomatik üstünlük qazanmasına şərait yaratmışdır.

44 günlük müharibənin əsas məqsədi Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərinin – beynəlxalq hüquq tərəfindən tanınan torpaqlarının – azad edilməsindən ibarət idi. Azərbaycan bu müharibədə BMT qətnamələrinə, beynəlxalq hüququn suverenlik və ərazi bütövlüyü prinsipinə istinad etmiş və faktiki olaraq beynəlxalq hüququn tətbiqini özü həyata keçirmişdir. Müharibə başa çatdıqdan sonra Azərbaycan revanşizmə meyil etməmiş, əksinə bölgədə dayanıqlı sülhün təmin olunması üçün siyasi və diplomatik təşəbbüslərlə çıxış etmişdir. Zəngəzur dəhlizi, nəqliyyat kommunikasiyalarının açılması, sərhədlərin delimitasiyası kimi məsələlər gündəmə gətirilmişdir.

2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal antiterror əməliyyatı da bu kon-

tekstdə qiymətləndirilməlidir. Separatçı rejimin Azərbaycan qanunvericiliyini tanımaması, silahlı birləşmələrin mövcudluğu və davamlı təxribatlar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş təhlükə olaraq dəyərləndirilmiş və bu təhlükələrin neytrallaşdırılması məqsədilə birgə antiterror tədbirləri həyata keçirilmişdir. Bu əməliyyat həm hərbi, həm də siyasi baxımdan lokal və məqsədyönlü olmuş, dinc əhali və mülki infrastruktura zərər verilmədən həyata keçirilmişdir.

Azərbaycan bu əməliyyatdan sonra yenidən sülh çağırışlarını səsləndirmiş, reinteqrasiya siyasətini elan etmiş və ərazidə yaşayan erməni əhalinin Azərbaycan vətəndaşı kimi hüquqlarının qorunacağına dair siyasi öhdəliklər götürmüşdür. Bu yanaşma bir daha təsdiqləyir ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sülhü yalnız ritorik deyil, real siyasət səviyyəsində tətbiq edən regional aktora çevrilmişdir.

### 3. Qoşulmama hərəkatı və Azərbaycanın qlobal sülhə töhfəsi

Azərbaycan Respublikasının beynəlxalq siyasət fəlsəfəsi təkcə region səviyyəsində deyil, həm də qlobal miqyasda sabitlik və sülhün təşviqinə yönəlmiş prinsipial mövqelərlə seçilir. Bu yanaşma, xüsusilə də Azərbaycanın Qoşulmama Hərəkatındakı (QH) fəaliyyəti çərçivəsində daha sistemli və nəzərəçarpacaq şəkildə özünü göstərmişdir. 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qismində qoşulan Azərbaycan, 2019–2023-cü illərdə isə bu mühüm beynəlxalq təşkilata uğurla sədrlik etmişdir. Bu dövr ərzində Azərbaycan beynəlxalq münasibətlərdə "hüquqa əsaslanan beynəlxalq nizamın" bərpası ideyasını irəli sürərək, sülh və ədalət prinsiplərini QH çərçivəsində sistematik şəkildə gündəmdə saxlamışdır.

Qoşulmama Hərəkatı 1961-ci ildə Belqradda təsis olunduğu gündən bəri beynəlxalq sistemdə hegemonluğa qarşı bir siyasi mövqe olaraq formalaşmışdır. Bu təşkilat müstəqil siyasət yürütmək istəyən, Qərb və Şərq blokları arasında seçimə məcbur edilmək istəməyən ölkələri bir araya gətirmişdir. Azərbaycan bu kontekstdə öz siyasətində tarazlılıq, prinsipiallıq və hüquqa sadiqlik meyarlarına uyğun şəkildə çıxış edərək hərəkatın fəlsəfəsinə yeni dinamika qazandırmışdır. Prezident İlham Əliyev bu çərçivədə həm hərəkatın daxili institutlaşmasını gücləndirmiş, həm də onun qlobal beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirmişdir.

Azərbaycanın sədrliyi dövründə hərəkatın institusional inkişafı və beynəlxalq reputasiyanı əhəmiyyətli dərəcədə artmışdır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Hərəkatın BMT ilə əlaqələrini intensivləşdirmiş, xüsusilə də pandemiya dövründə qlobal ədalət və bərabərlik prinsipinə sadiqliyini nümayiş etdirmişdir. 2020-ci ildə Azərbaycan Prezidenti COVID-19 ilə bağlı Qoşulmama Hərəkatının onlayn zirvə görüşünü təşkil etmiş və bu platforma vasitəsilə inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına diqqət çəkmişdir (3). Bu təşəbbüs nəticəsində BMT Baş Assambleyasında pandemiya ilə mübarizəyə dair qətnamə qəbul edilmiş və bu qətnamədə bərabər tibbi yardım, vaksinə çıxış və inkişaf etməkdə olan ölkələrə dəstək çağırışı öz əksini tapmışdır.

Bu addımlar Azərbaycanın yalnız milli maraqlara deyil, qlobal məsuliyyətə əsaslanan siyasət yürütməsinin bariz nümunəsidir. İlham Əliyevin irəli sürdüyü bu yanaşma beynəlxalq münasibətlərdə normativ nəzəriyyə çərçivəsində "ədalətli beynəlxalq nizam" ideyasına uyğundur. Bu nəzəriyyəyə əsasən, dövlətlər yalnız gücə deyil, həm də normativ hüquqi çərçivəyə və universal prinsiplərə əsaslanmalıdırlar. Azərbaycan da bu prinsipləri rəhbər tutaraq, QH çərçivəsində hegemon güclərin ikili standartlarına qarşı çıxmış və beynəlxalq hüququn selektiv tətbiqinə qarşı mövqe sərgiləmişdir.

Azərbaycanın sədrliyi dövründə verdiyi önəmli mesajlardan biri də, beynəlxalq münasibətlərdə "kiçik və orta dövlətlərin" də beynəlxalq gündəliyin formalaşmasında aktiv rol oynaya biləcəyidir. Azərbaycan QH tribunasından istifadə edərək, BMT Təhlükəsizlik Şurası kimi qlobal qərarverici mexanizmlərin islahatını, ədalət və bərabərlik

prinsipinin qorunmasını, siyasi suverenliyin və daxili işlərə qarışmama prinsipinin universal tətbiqini tələb etmişdir. Bu yanaşma Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki fəal və hüquqa əsaslanan mövqeyini daha da gücləndirmişdir.

Azərbaycanın sülh təşəbbüsləri, həmçinin iqtisadi və humanitar sahələrdə də özünü göstərmişdir. Azərbaycan Qoşulmama Hərəkatının bir sıra üzv ölkələrinə tibbi ləvazimat, vaksin, ərzaq yardımı və texniki dəstək göndərmişdir. Bu yardımlar birbaşa olaraq ölkələr arasında sülh və həmrəyliyin qurulmasına yönəlmiş praktiki addımlardır. Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə "Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi" və "Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi" təsis olunmuşdur. Bu təşəbbüslər sülhü yalnız hökumətlər səviyyəsində deyil, vətəndaş cəmiyyəti, gənclər və qanunverici orqanlar səviyyəsində də möhkəmləndirmək məqsədi daşıyır.

Azərbaycan Respublikasının Qoşulmama Hərəkatındakı fəaliyyəti onun sülh və hüquqa əsaslanan beynəlxalq siyasətinin fundamental dayaqlarından biri kimi çıxış edir. İlham Əliyevin rəhbərliyi ilə aparılan bu siyasət həm normativ baxımdan beynəlxalq hüququn müdafiəsi, həm də praktiki baxımdan qlobal həmrəylik və sosial ədalətə yönəlmişdir. Azərbaycanın bu istiqamətdəki fəaliyyəti yalnız regional deyil, eyni zamanda qlobal sülh və təhlükəsizlik mühitinə əhəmiyyətli töhfələr vermişdir.

## 4. Azərbaycanın tolerantlıq siyasəti: daxili sülh modeli

Sülhün təmin olunması yalnız dövlətlərarası münasibətlərin normallaşması və beynəlxalq münaqişələrin həlli ilə məhdudlaşmır. Müasir siyasi nəzəriyyələr və beynəlxalq sülh nəzəriyyələri göstərir ki, dayanıqlı və dərin sülh ("positive peace") həm də daxili sabitlik, sosial harmoniya və cəmiyyət daxilində qarşılıqlı etimad mühiti ilə mümkün olur. Bu baxımdan dövlətin multikultural siyasəti, dini və etnik tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, insan hüquqlarının qorunması və vətəndaşların fərqliliklərinə hörmətlə yanaşılması daxili sabitliyin əsas şərtləri sırasındadır. Azərbaycan Respublikası bu göstəricilər baxımından Cənubi Qafqazda və daha geniş anlamda müsəlman dünyasında nümunəvi model kimi təqdim olunur.

Azərbaycan qədimdən bəri çoxmillətli və çoxdinli bir cəmiyyətin formalaşdığı coğrafi və mədəni məkan olmuşdur. Bu tarixi konfiqurasiya müstəqil Azərbaycanın milli kimliyində də öz əksini tapmış, dövlətin əsas strateji istiqamətlərindən biri kimi multikulturalizmin və tolerantlığın qorunması və təşviqi müəyyən edilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət daha da institusional xarakter qazanmış, dövlətin rəsmi ideoloji platformasına çevrilmişdir. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" (5), 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunması bu istiqamətdəki siyasi iradənin bariz ifadəsidir (4).

Azərbaycanın tolerantlıq siyasəti sadəcə daxili idarəçilik üçün deyil, həm də beynəlxalq humanitar diskurs üçün nəzəri nümunə kimi təqdim olunur. Bu çərçivədə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Bakı Prosesi, Dünya Mədəniyyətlərarası Dialoq Forumu və Dini Liderlərin Zirvə Görüşü kimi tədbirlər, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqində qlobal miqyaslı platformalara çevrilmişdir. Bakı Prosesi, xüsusilə UNESCO, İSESCO və BMT ilə əməkdaşlıq əsasında formalaşan, Qərb və İslam dünyası arasında anlaşma körpüsü funksiyasını yerinə yetirən bir təşəbbüs kimi tanınır. Bu proses həm də Azərbaycanın xarici siyasətində "yumşaq güc" strategiyasının effektiv bir aləti kimi çıxış edir.

Daxili sabitliyin qorunmasında və sülhün bərqərar olmasında əhalinin dini və etnik müxtəlifliyinin dövlət tərəfindən hüquqi və mənəvi baxımdan qorunması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Konstitusiyasının 18 və 25-ci maddələrində dini inancların azadlığı, etnik mənsubiyyətə görə ayrı-seçkiliyin qadağan olunması və dövlətin dünyəvi xarakteri təsbit edilmişdir. Bu hüquqi baza əsasında yəhudi,

pravoslav, erməni-qriqoryan, katolik və müxtəlif protestant icmaları Azərbaycanda sərbəst şəkildə fəaliyyət göstərir. Bu isə ölkənin beynəlxalq miqyasda həm müsəlman, həm də qeyri-müsəlman ölkələr tərəfindən hörmətlə qəbul edilməsinə səbəb olur.

Eyni zamanda, bu tolerantlıq siyasəti Azərbaycan vətəndaşlarının siyasi və sosial inteqrasiyasına xidmət edən effektiv bir mexanizmə çevrilmişdir. Dağ yəhudiləri, ləzgilər, talışlar, udinlər, kürdlər və digər azsaylı xalqlar Azərbaycanın ictimai-siyasi və mədəni həyatında aktiv iştirak edir. Bu proses sübut edir ki, Azərbaycan modeli etnik və dini azlıqların gettolarda saxlanılması deyil, onların ictimai həyatla inteqrasiyası və identikliklərinin qorunması prinsipinə əsaslanır. Məhz bu səbəbdən Azərbaycan "multikulturalizm və tolerantlığın laboratoriyası" kimi dəyərləndirilir.

İlham Əliyevin tolerantlıq siyasəti eyni zamanda beynəlxalq terrorizmə, dini radikalizmə və ekstremizmə qarşı ideoloji bir cavabdır. Qlobal miqyasda dinlərarası qarşıdurmanın artdığı, islamofobiyanın və antisemitizmin geniş yayıldığı bir dövrdə Azərbaycan modeli dini harmoniya və qarşılıqlı hörmətə əsaslanan dövlət idarəçiliyi nümunəsi təqdim edir. Bu isə sülhün sadəcə təhlükəsizlik tədbirləri ilə deyil, eyni zamanda dəyərlər və mənəvi sistemlər üzərindən təmin edilə biləcəyini göstərir.

Azərbaycanın tolerantlıq və multikulturalizm siyasəti yalnız daxili sabitlik baxımından deyil, həm də beynəlxalq səviyyədə sülh və əməkdaşlığın təşviqinə töhfə verən strateji və normativ bir modeldir. Bu siyasətin əsas sütunlarını hüquqi çərçivə, siyasi iradə, mədəni diplomatiya və vətəndaşların qarşılıqlı hörmət və anlayışı təşkil edir. Prezident İlham Əliyevin bu istiqamətdəki fəaliyyəti Azərbaycanın təkcə iqtisadi və geosiyasi baxımdan deyil, həm də mənəvi və humanitar aspektlərdə nüfuzlu bir ölkə kimi tanınmasını təmin etmişdir.

**Nəticə**

Prezident İlham Əliyevin formalaşdırdığı və ardıcıl şəkildə həyata keçirdiyi sülh strategiyası XXI əsr beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının yerini və rolunu yenidən müəyyənləşdirən əsas siyasi konsepsiyalardan biri kimi çıxış edir. Bu strategiya təkcə regional sabitliyə deyil, eyni zamanda qlobal əməkdaşlıq platformalarında konstruktiv tərəfdaşlıq münasibətlərinin qurulmasına xidmət edir. İlham Əliyevin sülh yanaşması, bir tərəfdən real siyasətin tələb etdiyi milli maraqlara əsaslanır, digər tərəfdən isə beynəlxalq hüququn norma və prinsiplərinə hörmət göstərməklə müasir dövlətçilik fəlsəfəsinə uyğun ümumbəşəri dəyərlərlə uzlaşır.

Azərbaycanın hərbi-siyasi sahədə əldə etdiyi uğurlar, xüsusilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı, ölkənin ərazi bütövlüyünü bərpa etməsi baxımından strateji əhəmiyyət kəsb etsə də, bu nailiyyətlər sülhə və dincgüclü reinteqrasiya siyasətinə yönləndirilməsi ilə daha geniş mənaya sahib olmuşdur. Bu, klassik "qalib dövlət" modelindən fərqli olaraq, münaqişədən sonrakı mərhələdə ədalətli və inklüziv sülh modelinin qurulması ilə fərqlənir. İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, müharibəni diplomatiya tamamlamalıdır, qalibiyyət isə revanşizmə deyil, sabitliyə və dialoqa yol açmalıdır.

Diplomatik təşəbbüslər baxımından Azərbaycan Prezidentinin sülh strategiyası çoxtərəfli və praqmatik yanaşmanı ehtiva edir. Ermənistanla sərhədlərin delimitasiyası, nəqliyyat və enerji kommunikasiyalarının açılması, regionda iqtisadi inteqrasiyanın təşviqi və suverenliyin qarşılıqlı tanınması istiqamətində irəli sürülən təkliflər bu strategiyanın praktik ifadəsidir. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə beynəlxalq hüququn universallığının müdafiəsi, inkişaf etməkdə olan ölkələrə yardım və pandemiya dövründə humanitar diplomatiyanın təşkili İlham Əliyevin qlobal sülhə verdiyi töhfənin bariz nümunələrindəndir.

Daxili siyasət baxımından isə Azərbaycan Respublikasının tolerantlıq, multikultu-

ralizm və sosial həmrəylik dəyərlərinə əsaslanan idarəçilik modeli bu strategiyanın daxili sabitlik komponentini təşkil edir. Dini və etnik müxtəlifliyin hüquqla qorunduğu, azlıqların cəmiyyətin siyasi, sosial və mədəni həyatında fəal iştirak etdiyi Azərbaycan modeli, daxili sabitliyin qorunması ilə beynəlxalq sülh fəlsəfəsi arasında üzvi əlaqənin mövcudluğunu sübut edir. Məhz bu səbəbdən, Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində təşəbbüsləri, o cümlədən Bakı Prosesi və Dini Liderlərin Zirvə Görüşləri – beynəlxalq aləmdə geniş rəğbətlə qarşılanmışdır.

Bütün bu göstəricilər sübut edir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi sülh strategiyası yalnız situativ siyasi zərurətlərin cavabı deyil, uzunmüddətli strateji düşüncəyə əsaslanan, hüquq, ədalət və təhlükəsizlik balansına söykənən sistemli bir konsepsiyadır. Bu konsepsiya Azərbaycanın həm regional güc balansında fəal oyunçu, həm də beynəlxalq hüququn tərəfdarı və təşəbbüskar aktor kimi çıxış etməsinə şərait yaratmışdır.

Beləliklə, Azərbaycanın qazandığı hərbi uğurların diplomatik və humanitar müstəviyə ötürülməsi, beynəlxalq təşkilatlarda nümayiş etdirdiyi prinsipial və ədalətə əsaslanan mövqe, eləcə də daxildə etnik və dini müxtəlifliyi dəstəkləyən sabit idarəetmə modeli, onu təkcə Cənubi Qafqaz regionunda deyil, daha geniş coğrafiyada sülh və təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşına çevirmişdir. İlham Əliyevin bu çoxşaxəli və çoxölçülü sülh strategiyası, müasir dünyada sülhün yalnız hərbsizliyə deyil, həm də ədalətə, hüquqa, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslandığını praktik şəkildə nümayiş etdirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqi. /31 oktyabr 2003-cü il, s.6. (http://files.preslib.az/site/ialiyev/2003.pdf).
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 2-ci kitab. Bakı: Azərnəşr, 1997, 164 s.
3. Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə İlham Əliyevin nitqi. (https://president.az/az/articles/view/59194).
4. Prezident İlham Əliyev: "2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi sülhə çağırışdir". (https://scara.gov.az/az/xebər/maariflendir-me/islam-hemreyligi/prezident-ilham-eliyev-2017-ci-ilin-islam-hemreyligi-ili-elan-edilmesi-sulhe-cagirisdir)
5. Sümərinli C. İrəliyə, NATO-ya doğru! Bakı: "Əbilov, Zeynalov və oğulları", 2007, 138 s.
6. 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
(https://e-qanun.az/framework/32310)
7. Алиев И. Г. Каспийская нефть Азербайджана. Москва: Известия, 2003, 712 с.
8. Ministry of Foreign Affairs of the Republic of Azerbaijan. (n.d.-a). Relations with the United Nations (UN). (https://mfa.gov.az/en/category/beynelxalq-teskilatlar/azerbaycan-birlesmis-milletler-teskilati-munasibetleri)
9. President Ilham Aliyev met with UN Secretary General Ban Ki-moon in New York. (https://president.az/en/articles/view/4802)



***Резюме***

***Хевва Оруджова***

***Концептуальные основы мирной стратегии Президента Ильхама Алиева***

В данной статье анализируются основы мирной стратегии реализуемой под руководством Президента Ильхама Алиева. Подчёркивается, что политика Азербайджана в области мира направлена на установление отношений, основанных на нормах международного права, принципах равноправия и уважения к суверенитету государств, как в региональном, так и в глобальном измере-

нии. На первом этапе рассматривается теоретический подход Азербайджана к миру в контексте международного права. Особое внимание уделяется закреплению принципов территориальной целостности, невмешательства во внутренние дела и взаимного признания государств. Эти положения формируют концептуальную основу мирной политики, обеспечивая её правовую и моральную легитимность. Далее анализируются военные и дипломатические инициативы страны в Южном Кавказе. 44-дневная Отечественная война 2020 года и локальная контртеррористическая операция 2023 года рассматриваются как ключевые этапы, обеспечившие восстановление государственного суверенитета, укрепление национальной безопасности и формирование новой архитектуры регионального порядка. Эти события заложили базу для устойчивого мира, основанного на справедливости, законности и равновесии интересов. Международное измерение политики Азербайджана проявилось особенно ярко в период председательства в Движении неприсоединения. Азербайджан активно продвигал идеи глобальной справедливости, солидарности и многостороннего сотрудничества. Важное значение имели инициативы в гуманитарной сфере, в том числе поддержка стран в борьбе с пандемией и участие в глобальной климатической повестке, что укрепило имидж страны как ответственного международного актора. Во внутренней плоскости стратегия опирается на развитие толерантности, мультикультурализма и межрелигиозного согласия. Эти ценности органично сочетаются с внешнеполитическими инициативами, формируя единую модель национального и международного миротворчества. В заключение подчёркивается, что мирное видение Ильхама Алиева представляет собой комплексную и долгосрочную модель, основанную на нормативной законности, прагматичной дипломатии и внутренней стабильности, что придаёт азербайджанской стратегии уникальный характер и значимость в современном мире.

**Ключевые слова**: *мирная стратегия, Азербайджан, Южный Кавказ, международное право*

***Summary***

***Hava Orujova***

***The Conceptual Foundations of President Ilham Aliyev's Peace Strategy***

This article examines the theoretical, political, and institutional foundations of the peace strategy formulated and implemented under the leadership of President Ilham Aliyev. It argues that Azerbaijan's peace policy seeks to establish relations based on international law both regionally and globally. In its first part, the article outlines Azerbaijan's political and theoretical approach to peace within the framework of international legal norms, emphasizing the importance of sovereignty, territorial integrity, and mutual respect among states. The study then analyzes Azerbaijan's military and diplomatic initiatives in the South Caucasus, identifying the 44-day Patriotic War of 2020 and the 2023 counter-terrorism operation as pivotal phases in shaping a new regional security architecture. These events not only restored Azerbaijan's sovereignty but also created a foundation for a long-term peace process grounded in justice and legality. Azerbaijan's proactive international role is another central dimension. As chair of the Non-Aligned Movement from 2019 to 2023, Azerbaijan consistently advocated for the principles of international law, global justice, and multilateral cooperation. In addition, its humanitarian diplomacy and calls for fairer global governance strengthened its position as a responsible international actor. Domestically, the promotion of tolerance, multiculturalism, and interfaith harmony has served as an internal pillar of Azerbaijan's peace vision. The country's active engagement in intercultural dialogue initiatives further demonstrates the coherence between its internal values and external policy. The study concludes that Ilham Aliyev's peace strategy constitutes a comprehensive and long-term model combining normative legality, pragmatic diplomacy, and internal stability, thereby offering a distinctive approach to sustainable peace.

**Key words**: *Peace strategy, Azerbaijan, South Caucasus, international law.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.